İPƏK YOLU, No.3, 2025, səh.130-136
https://doi.org/10.30546/SI.2025.3.124.130

# MÜASİR DÖVRDƏ QLOBAL SƏVİYYƏDƏ BEYNƏLXALQ MİQRASİYA AXINLARI

**Günel Məmmədova**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: gunel-tmm86@mail.ru

**Xülasə.** Müasir dövrün mühüm xüsusiyyəti olan qloballaşmanın əsas təzahürlərindən biri əhalinin bəzən kütləvi xarakter daşıyan miqrasiyasıdır. Həm göndərən, həm də qəbul edən ölkələr üçün müxtəlif - həm müsbət, həm də mənfi təsir göstərən miqrasiya proseslərinin fərqli aspektlərdən öyrənilməsi bu ölkələrdə bu sahədə adekvat siyasi qərarların qəbul edilməsi üçün çox önəmlidir. Məqalədə miqrasiya prosesləri üç amil üzrə tədqiq olunmuşdur: ölkələrin milli gəlir qrupları, dünya regionları və ayrı-ayrı ölkələr üzrə.

**Açar sözlər:** Xalis miqrasiya, gəlir səviyyəsinə görə ölkə qrupları, coğrafi yerləşməyə görə ölkə qrupları.

**INTERNATIONAL MIGRATION FLOWS AT THE GLOBAL LEVEL IN THE MODERN ERA**

**Gunel Mammadova**
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** One of the main manifestations of globalization, which is an important feature of the modern era, is population migration, sometimes of a massive nature. Studying migration processes that have both positive and negative impacts on sending and receiving countries from different angles is of great importance for making adequate policy decisions in these countries in this area. The article examines the dynamics of migration processes by three factors: by national income groups of countries, by regions of the world and by individual countries.
**Keywords:** Net migration, groups of countries by income level, groups of countries by geographical location.

**МЕЖДУНАРОДНЫЕ МИГРАЦИОННЫЕ ПОТОКИ НА ГЛОБАЛЬНОМ УРОВНЕ В СОВРЕМЕННУЮ ЭПОХУ**

**Гюнель Мамедова**
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме.** Одним из основных проявлений глобализации, являющейся важной особенностью современной эпохи, является миграция населения, иногда носящая массовый характер. Изучение миграционных процессов, оказывающих как положительное, так и отрицательное воздействие на отправляющих и для принимающих стран, с разных сторон имеет большое значение для принятия в этих странах адекватных политических решений в данной области. В статье исследуются динамика миграционных процессов по трем факторам: по группам национального дохода стран, по регионам мира, по отдельным странам.
**Ключевые слова:** Чистая миграция, группы стран по уровню доходов, группы стран по географическому положению.

## 1. Giriş

İnsanlar müxtəlif səbəblərlə öz vətənlərindən digər ölkələrə üz tutur. Bir çox hallarda bu köç daimi xarakterli olur. Hətta müvəqqətilik niyyəti ilə köç edənlərin müəyyən qismi getdiyi ölkənin vətəndaşlığını əldə edərək, orada daimi qalır. Beynəlxalq miqrasiyanın mühüm səbəbi iqtisadi amillər, miqrantların böyük hissəsi isə əmək miqrantlarıdır və buna görə də əsas emiqrant ölkələri yoxsul, qəbul edən ölkələr isə yüksək gəlirli ölkələrdir. Lakin iş axtarışı bu

fenomenin yeganə səbəbi deyil. Məlumdur ki, İraq, Suriya, Ukrayna və digər bu kimi ölkələrdən köçün əsas səbəbi bu ölkələrdə uzun sürən dağıdıcı müharibələrdir. Lakin bu, o demək deyil ki, emiqrasiya yalnız azgəlirli və müharibə edən ölkələrə xasdır, inkişaf etmiş ölkələrdən də müxtəlif səbəblərdən köçənlər çoxdur. Buna görə də beynəlxalq təşkilatların qlobal səviyyədə təqdim elədiyi statistik məlumatlarda ayrılıqda ölkədən emiqrasiya və ölkəyə immiqrasiya deyil, xalis miqrasiya (net miqration) rəqəmləri verilir və *xalis miqrasiya* dedikdə, ölkəyə gələnlərin sayı ilə ölkədən gedənlərin sayı arasında fərq nəzərdə tutulur, yəni əslində bu göstəricini xalis immiqrasiya adlandırmaq düzgün olar. Analoji olaraq:

xalis emiqrasiya = ölkədən gedənlərin sayı - ölkəyə gələnlərin sayı

Beynəlxalq miqrasiyanın geniş mənada coğrafiyasını dərk etmək üçün ölkələr üzrə miqrasiya proseslərini tədqiq etməzdən əvvəl ölkə qrupları üzrə araşdırma aparılması məqsədəmüvafiqdir. Bu məqsədlə biz iki period üçün xalis emiqrasiyanı hesablamışıq:

- Mötəbərlik məqsədi ilə son 21 il (2004-2024-cü illər);
- Son dövrlərin meyillərinin öyrənilməsi məqsədi ilə son beş il (2020-2024-cü illər).

## 2. Qlobal səviyyədə beynəlxalq emiqrasiyanın coğrafiyası

**Gəlir səviyyəsinə görə ölkə qrupları.** Dünya üzrə emiqrantların sayı immiqrantların sayına bərabər olduğundan, dünya üzrə xalis miqrasiya həmişə sıfıra bərabərdir. Bu səbəbdən biz cədvəllərdə dünya üzrə miqrasiyanı əks etdirmirik və xüsusi çəkilərin hesablanmasına da ehtiyac yoxdur.

Son iyirmi ildə xalis emiqrasiyanın ən çox müşahidə olunduğu ölkələr orta gəlirli ölkələrdir: 2004-2024-cü illər ərzində miqrasiya nəticəsində bu ölkələrin əhalisi 87 milyon nəfər, 2020-2024-cü illər ərzində isə təqribən 22 milyon nəfər, yəni ildə ortalama 4,3 milyon nəfər azalmışdır (Cədvəl 1).

**Cədvəl 1.** Xalis emiqrasiyada lider olan ölkə qrupları, nəfər

| Ölkə qrupları | Cəmi 2004-2024 | Cəmi 2020-2024 | 2020-2024-də orta illik |
|---|---|---|---|
| Orta gəlirli ölkələr | -87084485 | -21667068 | -4333414 |
| Gəlirləri orta səviyyədən aşağı olan ölkələr | -72073371 | -16086171 | -3217234 |
| Orta gəlirdən yuxarı ölkələr | -15011114 | -5580897 | -1116179 |
| Aşağı gəlirli ölkələr | -12140207 | -745660 | -149132 |

**Mənbə:** [2]-in məlumatları əsasında müəllif tərəfindən hesablanmış və tərtib olunmuşdur.

Qeyd edək ki, 2024-cü ildə ölkələr gəlirlərinə görə Dünya Bankı tərəfindən aşağıdakı qruplara bölünmüşdür [5]:

- Aşağı gəlirli ölkələr: adambaşına ümumi milli gəliri (ÜMG) 1135 ABŞ dollarından az olan ölkələr;
- Ortadan aşağı gəlirli ölkələr: adambaşına ÜMG-si 1136-4465 ABŞ dolları arasında olan ölkələr;

- Ortadan yuxarı gəlirli ölkələr: adambaşına ÜMG-si 4466-13845 ABŞ dolları arasında olan ölkələr;
- Yüksək gəlirli ölkələr: adambaşına ÜMG-si 13846 ABŞ dollarından çox olan ölkələr.

Məsələn, bu təsnifata görə Azərbaycan, Gürcüstan, Türkiyə, İran və Ermənistan ortadan yuxarı gəlirli ölkə kateqoriyasına aiddir [4].

Sual meydana çıxa bilər: niyə bu göstərici üzrə liderlik azgəlirli və ortadan aşağı gəlirli ölkələrə deyil, orta gəlirli ölkələrə məxsusdur? Bunun iki əsas səbəbi var. Əvvəla, bu ölkələrdə dünya əhalisinin 75%-i, yoxsul əhalinin 62%-i yaşayır. Eyni zamanda dünya ÜDM-nin üçdə biri bu ölkələrin payına düşür və onlar qlobal iqtisadi artımın əsas lokomotivi hesab olunur [5]. Digər tərəfdən emiqrasiya kifayət qədər riskli və xərc tələb edən prosedur olduğundan bu, çox hallarda yoxsul əhalinin maliyyə imkanları xaricində olur [6].

İkinci ən çox əhali itirmiş ölkələr gəlirləri orta səviyyədən aşağı olan ölkələrdir: 2004-2024-cü illərdə 72 milyon nəfər, 2020-2024-cü illərdə 16 milyon nəfər, son beş ildə ortalama illik 3,2 milyon nəfər (Cədvəl 1). Belə ölkələrə həmçinin Hindistan və Pakistan da daxildir [4]. Bu göstəriciyə görə üçüncü mövqedə, Azərbaycanın daxil olduğu orta gəlirdən yuxarı ölkələrdir: son 21 ildə 15 milyon, son 5 ildə 5,6 milyon nəfər.

Xalis emiqrasiyaya görə aşağı gəlirli ölkələrin sonuncu yerdə olması təəccüblü deyil - bu, bir tərəfdən bu kateqoriyadan olan ölkələrin əhali sayının nisbətən az olması (2024-cü il Dünya Bankının məlumatına görə 624,6 milyon nəfər [1]), digər tərəfdən isə təhsil səviyyəsinə görə nisbətən yüksək gəlirli ölkələrdən geri qalmaqla dünya əmək bazarında rəqabətdə zəifliyi ilə izah oluna bilər.

**Coğrafi yerləşməyə görə ölkə qrupları.** Bu meyara görə xalis emiqrasiyanın ən çox olduğu bölgə Cənubi Asiyadır. Bu da təəccüblü deyil - bu coğrafiyada, əsasən, orta gəlirli və az gəlirli ölkələr yerləşir. 2004-2024-cü illərdə bu ölkələri tərk edənlərin sayı bura gələnlərin sayından 36,2 milyon nəfər, son beş ildə isə 8,0 milyon, yəni ildə təqribən 1,6 milyon nəfər çox olmuşdur. İkinci mövqedə olan Latın Amerikası və Karib dənizi ölkələrində son 21 ildə xalis emiqrasiya Cənubi Asiya ilə müqayisədə iki dəfədən çox az (15,9 milyon nəfər), son beş ildə isə 3 dəfədən çox azdır (2,3 milyon nəfər). Sonrakı üç yeri Afrikanın müxtəlif bölgələri tutur ki, bunlar, əsasən, az və ortadan az gəlirli ölkələrdir (Cədvəl 2).

**Cədvəl 2.** Xalis emiqrasiyada coğrafi mövqeyinə görə lider olan regionlar, nəfər

| Ölkə qrupları | Cəmi 2004-2024 | Cəmi 2020-2024 | 2020-2024-də orta illik |
|---|---|---|---|
| Cənubi Asiya | -36168015 | -7985159 | -1597032 |
| Latın Amerikası və Karib dənizi | -15927063 | -2258000 | -451600 |
| Səhra altı Afrika ölkələri | -9453005 | -1307331 | -261466 |
| Şərqi və Cənubi Afrika ölkələri | -6108717 | -1352782 | -270556 |
| Qərbi və Mərkəzi Afrika ölkələri | -3344288 | 45451 | 9090 |

**Mənbə:** [2]-in məlumatları əsasında müəllif tərəfindən hesablanmış və tərtib olunmuşdur.

**Ölkələr üzrə.** Ayrı-ayrı ölkələr arasında xalis emiqrasiyanın ən çox olduğu ölkələr də Şərqi və Cənubi Asiya ölkələridir ki, burada ilk amil əhali çoxluğudur və sözsüz ki, gəlirin aşağı səviyyəsi də aparıcı rola malikdir. 2004-2024-cü illərdə lider olan Pakistan (təqribən 21 milyon nəfər) son beş ildə də bu mövqeyini saxlayır (təqribən 5,5 milyon nəfər). Son 21 ildə ikinci yerdə Banqladeş olsa da, son 5 ilin göstəricisinə görə Ukrayna Pakistandan başqa bütün ölkələri üstələyir (təqribən 4,9 milyon nəfər) və bu rəqəm son 21 ilkindən (təqribən 4,8 milyon nəfər) də çoxdur. Aydındır ki, bu 3 ildən çoxdur ki, Rusiyanın Ukraynaya qarşı dağıdıcı müharibəsinin nəticəsidir (Cədvəl 3).

Cədvəl 3-dən məlum olur ki, Latın Amerikası və Karib dənizi ölkələrinin xalis emiqrasiyada dünya bölgələri arasında ikinci yerdə olması əhalisi çox olan Braziliya və Meksikadan köçənlərin hesabınadır, özü də son 5 ildə bu proses daha da intensivləşmişdir: 2004-2024-cü illər ərzində emiqrasiya nəticəsində Braziliyanın əhalisi ildə ortalama 166,7 min nəfər azaldığı halda son beş ildə azalma daha intensiv - ildə ortalama 200 000 nəfər təşkil etmişdir. Meksikada isə xalis emiqrasiya ildə ortalama bu dövrlərdə, uyğun olaraq, 162000 və 117 min nəfər olmuşdur.

**Cədvəl 3.** Xalis emiqrasiyada lider olan ölkələr, nəfər

| Ölkə | Cəmi 2004-2024 | Cəmi 2020-2024 | 2020-2024-də orta illik | 2020-2024-də hər 1000 nəfərə |
|---|---|---|---|---|
| Pakistan | -20928267 | -5468319 | -1093664 | 23 |
| Banqladeş | -19567157 | -3570514 | -714103 | 21 |
| Hindistan | -10504386 | -3386209 | -677242 | 2 |
| Çin | -8237824 | -1651888 | -330378 | 1 |
| Venesuela | -5195065 | -1216888 | -243378 | 43 |
| Nepal | -5045257 | -898245 | -179649 | 30 |
| Ukrayna | -4835009 | -4858690 | -971738 | 148 |
| Filippin | -4412997 | -678610 | -135722 | 6 |
| Braziliya | -3493645 | -1006226 | -201245 | 5 |
| Meksika | -3396349 | -584310 | -116862 | 4 |
| Sudan | -3247813 | -1955192 | -391038 | 38 |
| Zimbabve | -2484618 | -424799 | -84960 | 25 |
| Myanma | -2175751 | -209539 | -41908 | 4 |
| Əfqanıstan | -1793058 | -1145599 | -229120 | 26 |
| Uqanda | -1664813 | -276020 | -55204 | 6 |
| Suriya | -1500662 | 2519215 | 503843 | -1 |

**Mənbə:** [2]-in məlumatları əsasında müəllif tərəfindən hesablanmış və tərtib olunmuşdur.

Ölkələri miqrasiya proseslərinin intensivliyinə görə müqayisə edərkən miqrantların mütləq sayını tutuşdurmaq düzgün deyil. Hesab edirik ki, intensivliyi düzgün əks etdirmək üçün nisbi göstəricilərdən istifadə edilməlidir. Bu məqsədlə biz ölkə əhalisinin hər min nəfərinə düşən miqrant sayını təklif edirik. Qeyd etdik ki, 2020-2024-cü illər ərzində ölkədən mütləq axına görə liderlik Pakistana məxsusdur, lakin Cədvəl 3-dən görünür ki, emiqrasiyanın intensivliyinə, yəni əhalinin hər 1000 nəfərinə düşən emiqrant sayına görə çox böyük fərqlə birincilik Ukraynaya məxsusdur - hər 1000 nəfərdən 148-i, yəni əhalinin 15%-i ölkəni tərk

etmişdir. Bu göstəriciyə görə növbəti yerlərdə Venesuela (43 nəfər), Sudan (38 nəfər) və digər ölkələr gəlir. Mütləq xalis emiqrasiyaya görə ilk mövqelərdə olan Hindistanda hər min nəfərdən yalnız ikisi, Çində isə yalnız biri ölkəni tərk etmişdir. Suriyada isə son beş ildə immiqrasiyanın emiqrasiya üzərində üstünlüyü müşahidə olunur (Cədvəl 3).

## 3. Qlobal səviyyədə beynəlxalq immiqrasiyanın coğrafiyası

**Gəlir səviyyəsinə görə ölkə qrupları.** Gözlənildiyi kimi vətənlərini tərk edən emiqrantların əksər hissəsi yüksək gəlirli ölkələrə üz tutur: 2004-2024-cü illərdə bu ölkələr 103,9 milyon immiqrant qəbul etmişdir ki, bu da dünya əhalisinin təqribən yetmişdə bir hissəsi olmaqla çox böyük rəqəmdir. 2020-2024-cü illərdə də bu istiqamət emiqrantlar arasında populyar qalmışdır (236 milyon nəfər) (Cədvəl 4).

**Coğrafi yerləşməyə görə ölkə qrupları.** Coğrafi regionlar arasında 2004-2024-cü illərdə emiqrantların ən çox seçdiyi bölgə Şimali Amerika (36,2 milyon nəfər), ABŞ və Kanada olsa da, son beş ildə ən çox seçilən istiqamət Avropa İttifaqıdır (Şimali Amerika üzrə 6,7 milyona qarşı 7,8 milyon immiqrant). Bu faktın bir izahı da ondan ibarətdir ki, 1990-cı illərdə postsosialist ölkələrdən Şimali Amerikaya kütləvi axın nəticəsində azalmaqda olan ABŞ və Kanadada demoqrafik vəziyyətin yaxşılaşmasını görən Aİ-nın səlahiyyətli orqanları bu axını Avropaya cəlb etmə siyasəti həyata keçirdilər. Məsələn, 2008-ci ildə bu məqsədlə Avropa Miqrasiya Şəbəkəsi (The European Migration Network - EMN) yaradıldı. Avropa Komissiyasının miqrasiya və daxili işlər direktorluğunun koordinasiyası əsasında fəaliyyət göstərən EMN Aİ-nin miqrasiya və sığınacaq təminatı məsələləri üzrə siyasəti formalaşdıran ekspertlər şəbəkəsidir [3].

**Cədvəl 4.** Xalis immiqrasiyada lider olan ölkələr, nəfər

| Ölkə qrupları | Cəmi 2004-2024 | Cəmi 2020-2024 | 2020-2024-də orta illik |
|---|---|---|---|
| Yüksək gəlirli ölkələr | 103856260 | 23627438 | 4725488 |
| Şimali Amerika | 36219590 | 6650820 | 1330164 |
| Avropa İttifaqı | 23655695 | 7795770 | 1559154 |
| Ərəb dünyası | 9197110 | 3877765 | 775553 |

**Mənbə:** [2]-in məlumatları əsasında müəllif tərəfindən hesablanmış və tərtib olunmuşdur.

Emiqrantlar arasında üçüncü istiqamət, Ərəb dünyasıdır ki, bu, əsasən, son beş ildə populyarlaşmışdır: əgər 2004-2024-cü illərdə bu ölkələrə ildə ortalama 438 min miqrant gəlirdisə, 2020-2024-cü illərdə bu rəqəm 775 mindən çox olmuşdur (Cədvəl 4). Digər tərəfdən, miqrantlar bu regionda, əsasən, iki ölkəni seçirlər: Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) (Cədvəl 5).

**Ölkələr üzrə.** Konkret ölkə kəsimində ən çox immiqrant qəbul edən ölkə ABŞ-dır: 2004-2024-cü illərdə 30,3 milyon, 2020-2024-cü illərdə 4,93 milyon nəfər. Bu göstəricilərə

görə ABŞ digər ölkələri dəfələrlə üstələyir. Məsələn, ikinci yerdə olan Rusiyaya 2004-2024-cü illərdə gələnlərin sayı ABŞ-la müqayisədə təqribən 5 dəfə az (6,5 milyon nəfər), 2020-2024-cü illərdə isə təqribən 4 dəfə az (1,3 milyon nəfər) olmuşdur. Növbəti yerlərdə Rusiyadan kiçik fərqlərlə Almaniya, Birləşmiş Krallıq və Kanadadır. Son beş ilin immiqrant sayına görə bu ölkələr Rusiyanı üstələyir: Rusiyadakı orta illik təqribən 253 min xalis immiqranta qarşı Almaniyada 428 min, Birləşmiş Krallıqda 391 min, Kanadada 344 min (Cədvəl 5).

**Cədvəl 5.** Xalis immiqrasiyada lider olan ölkələr, nəfər

| Ölkə | Cəmi 2004-2024 | Cəmi 2020-2024 | 2020-2024-də orta illik | 2020-2024-də hər 1000 nəfərə |
|---|---|---|---|---|
| ABŞ | 30340737 | 4932365 | 986473 | 15 |
| Rusiya | 6536758 | 1263600 | 252720 | 9 |
| Almaniya | 6362245 | 2141791 | 428358 | 26 |
| Birləşmiş Krallıq | 6308852 | 1956854 | 391371 | 29 |
| Kanada | 5878817 | 1717888 | 343578 | 41 |
| Səudiyyə Ərəbistanı | 5417987 | 1243921 | 248784 | 36 |
| BƏƏ | 5278955 | 1415420 | 283084 | 134 |
| İspaniya | 4934431 | 911791 | 182358 | 19 |
| İtaliya | 4098888 | 719271 | 143854 | 12 |
| Avstraliya | 3947391 | 580929 | 116186 | 21 |
| Malayziya | 3902762 | 834408 | 166882 | 24 |
| Cənubi Afrika | 3351922 | 1456625 | 291325 | 23 |
| Yaponiya | 3095568 | 510368 | 102074 | 4 |
| İran İslam Respublikası | 2874095 | 1009677 | 201935 | 12 |
| Türkiyə | 2639430 | -837349 | -167470 | -10 |
| Fransa | 2110747 | 638824 | 127765 | 9 |
| Koreya Respublikası | 2104692 | 347416 | 69483 | 7 |

**Mənbə:** [2]-in məlumatları əsasında müəllif tərəfindən hesablanmış və tərtib olunmuşdur.

Rusiyaya xalis immiqrasiyanın azalmasının bir neçə mühüm səbəbi vardır ki, bunların da əksəriyyəti bu ölkənin Ukraynaya qarşı başlatdığı və artıq üç il yarımdır ki, davam edən təcavüzkar müharibəsidir.

– Əvvəla, müharibədə iştirakdan qaçmaq üçün külli miqdarda, xüsusən də gənc Rusiya vətəndaşı ölkəni tərk etmişdir - onlar relokant adlandırılır.

– İkincisi, müharibə ilə əlaqədar Rusiyaya qarşı tətbiq olunmuş iqtisadi sanksiyalar ölkənin iqtisadi durumunu pisləşdirərək, əmək miqrantları üçün bu ölkənin cazibədarlığını əhəmiyyətli dərəcədə azaltmışdır.

– Rusiyanın beynəlxalq pul köçürmə imkanlarının məhdudlaşdırılması da ölkəyə əmək miqrasiyasını azaldan vacib amildir.

– Nəhayət, Rusiya səlahiyyətli orqanlarının Rusiya vətəndaşı olmayan, lakin bu ölkədə qanun çərçivəsində fəaliyyət göstərən miqrantların qanunsuz olaraq müxtəlif bəhanələrlə əsgər qismində cəbhəyə göndərməsi insanları bu ölkədən qaçırdır.

Emiqrasiya proseslərinin tədqiqində istifadə etdiyimiz ölkələrin nisbi göstəricilərlə müqayisə metodunu immiqrasiya proseslərinə tətbiqi göstərir ki, immiqrant qəbulunda ölkələr

arasında yeddinci yerdə olan Birləşmiş Ərəb Əmirlikləri immiqrant qəbulunun intensivliyinə görə digər ölkələri dəfələrlə üstələyir: 2020-2024-cü illərdə bu ölkənin əhalisinin hər 1000 nəfərinə görə 134 nəfər miqrant düşür (Cədvəl 5), başqa sözlə demək olar ki, bu beş ildə immiqrantların hesabına bu ölkənin əhalisi 13,4% artmışdır. Bu göstəriciyə görə ikinci yerdə olan ölkə Kanadadır - burada son 5 ildə hər min nəfərə 41 xalis miqrant düşür. Növbəti yerlərdə əhalinin hər min nəfərinə 36 xalis miqrantla Səudiyyə Ərəbistanı, 29 miqrantla Birləşmiş Krallıq, 26 miqrantla Almaniya, 24 miqrantla Malayziya yerləşir.

2004-2024-cü ilin göstəricilərinə görə Türkiyə 2,6 milyon xalis immiqrant sayı ilə ölkələr arasında 14-cü yerdə məskunlaşdığı halda, 2020-2024-cü ildə bu ölkəni tərk edənlərin sayı gələnlərin sayından 837349 nəfər çox olmuşdur, bu da onunla izah oluna bilər ki, 2009-cu ildən Suriyada başlayan vətəndaş müharibəsi və onun ardınca ABŞ, İran və Rusiya kimi bir neçə ölkənin buraya müdaxiləsi nəticəsində ölkəni tərk edən milyonlarla dinc əhalinin əksəriyyəti həmsərhəd olan Türkiyədə məskunlaşmışdır - bəzi məlumatlara görə onların sayı 5 milyon nəfərə çata bilir. Lakin son beş ildə, xüsusən də 2024-cü ildə vətəndaş müharibəsinin sona çatması və adı çəkilən ölkələrin Suriyanı tərk etməsi ilə qaçqınların vətənə qayıtma prosesi başlamışdır.

**Nəticə.** Beləliklə, aparılan tədqiqat göstərir ki, miqrant göndərən ölkələr, əsasən, azgəlirli, qəbul edən ölkələr isə yüksək gəlirli ölkələrdir. Bu isə o deməkdir ki, müasir dövrdə ölkəni tərk edənlərin əsas motivləri iqtisadi motivlərdir. Çağdaş dövr üçün ikinci mühüm amil kimi ölkənin hərbi münaqişələrə cəlb olunmasıdır. Afrikanın Saharadan cənub hissəsinə xas olan bu amillər bir tərəfdən emiqrasiyanın artımına güclü təsir göstərəcəkdir, çünki Beynəlxalq Valyuta Fondunun proqnozuna görə 2050-ci ilə qədər bu regionun əhalisi artmaqda davam edəcək. Bununla bərabər bu və digər yoxsul ölkələrdə müşahidə olunan iqtisadi dirçəliş rüşeymləri miqrasiya təzyiqini azaldacaq və bunun nəticəsi olaraq beynəlxalq miqrantların sayı dünya əhalisinin 2%-i civarında stabil qalacaqdır. İqlim dəyişikliyinin də şərtləndirdiyi emiqrasiya çox olmayacaq.

## Ədəbiyyat

1. https://data.worldbank.org/country/low-income
2. https://data.worldbank.org/indicator/SM.POP.NETM
3. https://home-affairs.ec.europa.eu/networks/european-migration-network-emn_en
4. https://worldpopulationreview.com/country-rankings/middle-income-countries
5. https://www.worldbank.org/en/country/mic/overview
6. Макдональд М., Пьяцца Р., Шер Г., Энглер Ф. (2020), Миграция в страны с развитой экономикой может повысить темпы экономического роста. https://www.imf.org/ru/Blogs/Articles/2020/06/19/blog-weo-chapter4-migration-to-advanced-economies-can-raise-growth